*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 110-119* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.2.110*

## TARİXİ POETİKA

# Cəfər Cabbarlının tarixi dram qəhrəmanları dastançılıq ənənələri kontekstində

**Nuray Babayeva**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Email: babayevanuray@icloud.com

**Annotasiya.** Azərbaycan ədəbiyyatının böyük sənətkarı, istedadlı şair, tənqidçi, jurnalist, dramaturq, müasir ədəbi-bədii dilimizin formalaşması və inkişafında misilsiz xidməti olan C.Cabbarlı tarixi hadisələri XX əsrin əvvəllərinin ideoloji düşüncə, fəlsəfi baxış və bədii sənətkarlıq tərzi ilə əks etdirməsi baxımından dövrünün öndəgələn sənətkarlarındandır. C.Cabbarlı yaşadığı dönəmi və ondan əvvəl baş vermiş tarixi prosesləri canlı şəkildə əks etdirməklə yanaşı, bu prosesləri dastan ənənələri ilə əlaqələndirməklə Azərbaycan dramaturgiyasına öz töhfəsini vermiş, poetikada ənənəviliyi qoruyub saxlamış və inkişaf etdirmişdir. Bu məqalədə məqsədimiz sənətkarın bir neçə dram əsərindəki süjet, obrazlar aləmi, onların xarakter keyfiyyətləri, xüsusilə yerinə yetirdikləri funksiyalar, köməkçi tiplər və məhəbbət xəttinin dastan poetika ənənələri əsasında təhlilini təqdim etməkdir. C.Cabbarlının xalqın mədəni-genetik yaddaşında qəhrəman təsəvvürünün formalaşmasında xalq qəhrəmanlarının və onların dastanlarda obrazlaşdırılmış tipinin özünəməxsus yer qazanmasına görə dastan strukturu ilə oxuculara təsir imkanları güclü idi. Məqalədə “Nəsirəddin şah”, “Trablis müharibəsi”, “Ədirnə fəthi” və “Od gəlini” əsərləri ilə qəhrəmanlıq dastanlarının strukturu dastan mətnlərinə müraciət edilərək müqayisəli araşdırılmışdır. Müqayisə nəticəsində tarixi dramlarla dastanların qəhrəman obrazları, müxtəlif funksiya yerinə yetirən tiplər, məhəbbət xətti arasındakı paralelliklər müəyyənləşdirilmişdir.
Digər tərəfdən nəzərə almaq lazımdır ki, dastanlar xalqın uzun əsrlik düşüncəsinin məhsuludur və xalqlar arasında ortaq başlanğıca malikdir. Bununla belə, zaman keçdikcə məhdud arealda formalaşan dastanlar yarandığı mühitin təfəkkürünün məhsulu kimi formalaşmışdır. Biz ədəbiyyatda dastan qəhrəmanlarını çox zaman ona görə “xalq qəhrəmanları” olaraq adlandırırıq ki, onlar etnosun arzusuna uyğun olaraq formalaşmış, günümüzdə və sonrakı əsrlər üçün təfəkkürdə dəyişməyən qəhrəman tipinin daşıyıcısıdır. Məqalədə sözügedən qəhrəman tiplərinin ümumiləşmiş cəhətləri “Nəsrəddin şah”, “Trablis müharibəsi”, “Ədirnə fəthi” və “Od gəlini” əsərləri üzərində kompleks şəkildə təhlil edilmişdir.
**Açar sözlər:** Cəfər Cabbarlı, dastan, qəhrəman, “Trablis müharibəsi”, “Ədirnə fəthi”, “Od gəlini”

**Məqalə tarixçəsi:** göndərilib – 04.11.2024; qəbul edilib – 21.11.2024

# Jafar Jabbarli's historical drama characters in the context of epic traditions

**Nuray Babayeva**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
Email: babayevanuray@icloud.com

**Abstract.** The great master of Azerbaijani literature, a talented poet, critic, journalist, dramatist, and honored artist with unparalleled contributions to the formation and development of modern literary and artistic language, J. Jabbarli, reflected the historical events of the early 20th century through his ideological thinking, philosophical vision, and distinctive artistic style. He is one of the leading figures in Azerbaijani literature.
J. Jabbarli not only vividly depicted the historical processes of the 20th century and the preceding periods in which he lived but also enriched Azerbaijani drama by connecting these processes with epic traditions, preserving and developing traditionalism in poetics.
This article aims to analyze the themes, the world of imagery, the qualities of characters - particularly their functions - secondary figures, and love lines in several of Jabbarli's dramatic works, all examined within the context of epic poetics. Jabbarli's ability to influence readers through the epic structure was profound, as the national heroes and their archetypes depicted in epics hold a significant place in shaping the cultural and genetic memory of the Azerbaijani people.
Jabbarli skillfully conveyed his ideas and ideals to the public by utilizing epic structures in his historical dramas. This article compares the structure of historical heroic epics with Jabbarli's works, including *Nasiruddin Shah*, *The Trablis War*, *Conquest of Edirna*, and *Bride of Fire*, through references to epic texts. The comparison reveals parallels between historical dramas and the heroic characters of epics, the roles of various character types, and the depiction of love lines.
It should be noted, however, that epics are products of a people's long-standing cultural heritage and share common origins across different nations. This explains the notable similarities between them. Over time, epics that were initially shaped in specific regions evolved as products of the social and cultural environments in which they were created.
In literature, epic heroes are often referred to as "folk heroes" because they embody the archetypes formed according to the ethos of their people, remaining relevant across centuries. This article provides a comprehensive analysis of the generalized features of such hero types in Jabbarli's works, particularly in *Nasiruddin Shah, The Trablis War, Conquest of Edirna*, and *Bride of Fire*.
**Keywords:** Jafar Jabbarli, epos, hero, "The Trablis war", "Conquest of Edirna", "Bride of Fire"

**Article history:** received – 04.11.2024; accepted − 21.11.2024

## Giriş / *Introduction*

Cəfər Cabbarlı tarixi dramlarının ən əsas xüsusiyyətlərindən biri olan dastan qəhrəmanları ilə paralel əlamətlərə malik olmaq cəhəti sənətkarın dramaturgiyasına başqa bir istiqamətdən yanaşmaya sövq edir. Bu paralel əlamətləri, həmçinin fərqlilikləri aydın tədqiq etmək üçün ilk növbədə dastan və onun qəhrəmanlarının tipik xüsusiyyətlərinin aydınlaşdırılmasına ehtiyac var. Diqqət edilməli başqa bir məsələ isə C.Cabbarlının dram qəhrəmanlarının təkcə xarakter xüsusiyyətləri deyil, həm də fəaliyyətləri, hadisələrin təqdimedilmə forması və s. cəhətdən də dastanlarla ortaq xüsusiyyətlər nümayiş etdirməsidir.

Dastanlar yarandığı cəmiyyətin kütləvi düşüncə və baxışlarını özündə birləşdirməklə gələcək dövrün ümumi dəyərləri üçün baza rolunu oynayır. Hər bir hadisə ilə bağlı — ailə, məhəbbət, dostluq, düşmənçilik, xeyir, şər və s. kimi motivlər dastanın mövcud olduğu cəmiyyətin düşüncəsini əks etdirir.

Xalq ədəbiyyatı materiallarına xüsusi diqqətlə yanaşan Cəfər Cabbarlı "El ədəbiyyatı toplaşdırılmalıdır" başlıqlı yazısında qeyd edir ki, *"...başqalarında bu el ədəbiyyatı hər şeydən artıq qiymətləndirilərkən və son kəlməsinə qədər toplanıb hər bir bəndi üçün ayrıca kitab yazılarkən, təəssüf ki, bizdə toplanmamış, öyrənilməmişdir…. Halbuki bizdə bu el ədəbiyyatı təsəvvüf fövqündə olaraq zəngin və qiymətli incidir…"* [3, s.187]

## Əsas hissə / *Main part*

Azərbaycan dramaturgiyasını dünya dramaturgiyası ənənələri istiqamətində inkişaf etdirən Cəfər Cabbarlının yaradıcılığında folklor və mif zəmini də güclüdür. Cəfər Cabbarlı obrazları xarakteri, həyata baxışı, mühitə münasibəti, qəhrəmanlığı, vətənpərvərliyi, saf məhəbbəti ilə seçilirlər. Yaşadıqları cəmiyyətin bir parçası olub cəmiyyətin qanunlarına və ona təsir imkanlarına sahib fərdlərə qarşı mübarizə aparan bu qəhrəmanlar fiziki və mənəvi cəhətdən güclüdürlər. Cəmiyyətin tarazlığını pozan ənənələrlə mübarizə aparan qəhrəmanlar C.Cabbarlı idealının həm realist, həm də romantik daşıyıcılarıdır. "Onun yaratdığı kamil obrazlar, tiplər, xarakterlər çox böyük emosional təsirə, həmçinin, coşqun təbiətə, yüksək daxili inersiyaya, ümumilikdə, spesifik xüsusiyyətlərə malik şəxsiyyətlərdir. Bu inersiya və daxili hərarət daha çox onların dilində, nitqində və düşüncələrində özünü göstərir…. Əsl bədii xarakterlər yüksək əməl və qayələrin daşıyıcısı kimi meydana çıxır…

C.Cabbarlı əsərlərində də bədii fikir, ictimai-estetik ideal sadəcə nəzəri mülahizə olaraq qalmır, canlı insan xarakterlərinə keçir, onların varlığında, fəaliyyətində işə, əmələ, mübarizə vasitəsinə çevrilir" [6, s.424-425].

C.Cabbarlı tarixi dramlarının qəhrəmanlarının dastan qəhrəmanları ilə paralel əlamətlərə malik olması sənətkarın yaradıcılığının başqa bir istiqamətdən araşdırılmasını aktuallaşdırır.

C.Cabbarlı "Nəsrəddin şah" (1916), "Trablis müharibəsi" (1917) ,"Ədirnə fəthi" (1917), "Od gəlini" (1927) əsərlərinin qəhrəmanları təkcə təxəyyül məhsulu deyil, onları həm də dastan qəhrəmanlarından, onların süjetlərindən qaynaqlanaraq yaratmışdır. Hətta pyeslərdə dastan qəhrəmanları ilə yanaşı, "tarixə dastan yazan", xalq yaddaşında dastanlaşan prototip obrazlar da yer alır. Professor Tahirə Məmməd qeyd edib ki, "Dramaturgiyada ilk dəfə Mustafa Kamal Atatürkün bədii obrazını Cəfər Cabbarlı yaratmışdır." O, bunu belə əsaslandırır: "1911-ci ilin sentyabrında başlanan, 5 oktyabrda bitən Trablis döyüşündə türk ordusu məğlub olsa da, M.Atatürk gizli formada gəlir və Trablisi bir dönəmlik geri alır. Məhz həmin hadisədən ilhamlanaraq bu pyes yazılmışdır. "Ədirnə fəthi"ndə isə Mustafa artıq bir obraz kimi iştirak edir" [11, s.273-279].

1917-ci ildə yazdığı "Trablis müharibəsi" pyesinin Ramiz obrazı dastanların qəhrəmanları ilə ortaq xüsusiyyətlərə malikdir. Ramiz dastanlarda olan mütərəqqi ideyaların təmsilçisi, məqsədinə çatmaqda daha qərarlı olan və digərlərindən fərqlənən obrazları xatırladır. Doğrudur, dastanlarda olduğu kimi Ramiz qeyri-adi güc və bacarığa malik obraz kimi təqdim olunmasa da, xarakter və davranışına, həmçinin təkcə fiziki gücünə görə deyil, həm də mənəvi dözümlülüyünə görə güclü tipdir. Dastan qəhrəmanları ümumi bir kütlənin, xalqın arzularını və gücünü təmsil edir. Pyesdə Ramiz də məhz türklərin qəhrəmanlığının simvolu olmaqla, xalq iradəsinə uyğun davranır, onun kimi xilaskar qəhrəman arzusunda olan xalqın istəklərini yerinə yetirir.

Dastan qəhrəmanları, adətən müxtəlif səbəblərdən yurdundan uzaq düşür, dağlar, qayalar arasında yaşayır. Əslində bu, qəhrəmanın təbiətlə iç-içə olmasına, həyat fəaliyyətinin daha aktiv

gerçəkləşməsinə səbəb olur. Belə bir mühitdə qəhrəmanın qabiliyyətləri sınaqdan keçir, həm də fiziki cəhətdən daha dözümlü olurlar. Ramiz də dağlar arasında, təhlükə içində yaşayır.

Dastan qəhrəmanları çox zaman təklikdə belə qələbə çalacaq qüvvədə olsalar da, yanında rəmzi anlamda çox zaman qırx və ya daha çox yoldaşı olur. Pyesdə Ramiz də ona sadiq olan və güclü yoldaşları ilə birlikdədir.

Ramizin çətin mübarizə yoluna çıxdığı an onu tək qoymayan digər yoldaşlarının *“Mən də gedirəm! Mən də!....”* [2, s.132] deyərək ona qoşulması, qəhrəmanı tək buraxmaması da dastanlarda qarşılaşdığımız oxşar situasiyaları xatırladır. Dastan qəhrəmanları mifik güclə yanaşı, kifayət qədər real cizgilərə də malik olurlar. Onlar dünyəvi varlıq olduqlarından yanlışa da yol verə bilirlər; bəzi məqamlarda aldanır, əllərindəki fürsəti qaçırırlar. Ramiz də yoldaşlarına güvəndiyindən Harisin ustalıqla qurduğu yalana inanır. Məhz bu səhv Ramizin Ulduzdan ayrı düşməsinə səbəb olur.

Qazax xalqının qəhrəmanlıq dastanı olan “Koblandı-batır”dakı Koblandı obrazı Ramizlə ortaq xarakterə malikdir. Koblandının sevdiyi uğrunda mübarizədə düşdüyü çətinliklər Ramiz – Ulduz xəttini xatırladır. Bu mübarizədən Koblandı da uğurla çıxır. Qurtqa ilə birlikdə öz elinə getməsi Ulduzun rahat həyat şəraitindən uzaqlaşaraq dağlarda yaşaması motivi ilə ortaqdır. Bütün digər dastanlarda olduğu kimi, *“Koblandı-batır” dastanının qəhrəmanı Koblandın fərdi maraqları ictimai borcunu üstələmir.”* [8, s.288] “Trablis müharibəsi”ndə də Ramiz Ulduzla ayrı düşsə belə, quldur adını təmizləmək yolunda vətənini düşünərək könüllü şəkildə “ölümə” gedir. *“Mən səadətlə ölməyin yolunu buldum! Vətən yolunda ölmək kimi böyük səadəti mən çoxdan gözləyirdim”* [2, s.132].

Pyesin əsas qadın obrazı olan Ulduz dastanların qadın tipi ilə ortaq xüsusiyyətlərə malikdir. Ümumilikdə, türk dastanlarında ailə anlayışı müqəddəs sayılır. Dastanlarda ailənin özülü möhkəm qurulur və ailə sınaqlarla üzləşsə də bundan uğurla çıxır. Pyesdə də Ulduz – Ramiz məhəbbəti Harisin hiyləgər planı nəticəsində sınaqdan keçir.

Dastanlarda kişilər kimi qadınlar da cəsarəti və sədaqəti ilə önə çəkilir. Bu isə onların mənəvi gücünü göstərir. Xüsusilə də, qadınlar vəzifələrinin ağırlığı səbəbi ilə müqəddəs varlıq kimi müşahidə edilir. Bu proses həm islamdan əvvəl, həm də sonra yaranmış dastanlarda özünü göstərir. “Kitabi-Dədə Qorqud”da qadınlar xüsusi diqqətlə təqdim olunmuşdur. Xüsusilə, Burla xatun, Selcan xatun, Banuçiçək kimi qadın qəhrəmanları türk xalq düşüncəsində qadına olan münasibəti özündə inikas edən obrazlardır. Oğuz elinə çox zaman gəlin gələn qızlar da barışığı simvolizə etməklə oğuz elinin qadınları kimi yüksək keyfiyyətlərdə təqdim edilmişdir.

Pyesdə də Ulduz Ramizi yalnız buraxmır. İnsanları xilasa gedən Ramizin yolunu səbrlə, ümidlə gözləyir. Ulduz Ramizin ona inamsızlığından sarsılır, lakin namərd planının qurbanı olmur. Dastanların böyük bir qismində qadının sevdiyindən ayrı düşməsi və onun yolunu gözləməsi motivi müşahidə edilir. Pyesdə bu vəzifəni yerinə yetirən Ulduzdur. Dastanlarda qadın çətinə düşən zaman özünü itirmir, lazım olduqda özünü müdafiə edə bilir.

Əvvəldə də göstərdiyimiz kimi, dastanda ərənin yanında yoldaşları olur; Cabbarlının qəhrəmanlarının yanında olduğu kimi. Eyni ilə qadınların da yanında onlara dəstək olan obrazlar təqdim edilə bilir. Şəmsə obrazı igid, qoçaq və olduqca ağıllıdır. O, ögey qardaşı Harisin yalan vədlərinə inanmır, Ulduzun Ramizə qovuşması üçün özü tədbir görür. Dastanlarda olduğu kimi, xeyir əməllər tərəfdarı olduğundan sonda məqsədinə nail olur.

Dastanlarda hadisələr yalnız mütərəqqi ideyaların aparıcı qüvvələrinin iştirakı ilə inkişaf etmir. Bütün dastanlarda şər qüvvəni təmsil edən düşmən tipi də olur. O da gücə və qüvvəyə malik olsa da, əsas qəhrəman kimi ədalətli, vicdanlı, düzgün davranmır, öhdəsindən gələ bilmədiyi proseslərdə hiyləyə əl atır. Lakin, çox zaman dastanlar xeyirin qələbəsi ilə bitdiyi üçün düşmənin əməllərinin nəticəsi ağır itki və məğlubiyyətlə nəticələnir. Düşmən fiziki cəhətdən gücə malik ola bilər, ancaq, mənəvi cəhətdən yoxsuldur.

Düşmən tiplər müxtəlif keyfiyyətlərlə işlənir: qeyri-adi tiplər, ənənəvi-real tiplər, rəqib tip, xain tip və s. Bu tiplərin hər biri cəmiyyətdə fərqli sosial mövqelərdə dursa da, təxminən eyni funksiyanı icra edirlər. Qeyri-adi tiplər adından da göründüyü kimi, mifik, fövqəl keyfiyyətlərə malik olaraq yer alırlar. Burada düşmən tiplər kişi olmaqla yanaşı, qadın (qarı) olaraq da iştirak edə bilir. Bu baxımdan belə tiplər sehr etməklə yanaşı, müxtəlif surətlərə girərək də əsas qəhrəmanın düşməni funksiyasını yerinə yetirirlər; "Maaday Kara" dastanında olduğu kimi.

Real düşmən tiplər daha çox rast gəlinən obrazlardır. Məhz C.Cabbarlının tarixi dramlarında da bu tiplər iştirak edir. Onlar zülmkar, yalana əl atan, müxtəlif hiylələrlə, məkrli planlarla əsas qəhrəmanı məğlub etməyə çalışan tiplərdir. Bunlar içərisində əksər hallarda kişi, bəzən isə qadınlar da yer alır. "Tahir və Zöhrə" dastanında Tahir və Zöhrənin xoşbəxtliyinə mane olan hiyləgər tip yaşlı qadındır. Yaxud, "Kitabi-Dədə Qorqud" dastanında qadınlar hər nə qədər yüksək mövqedə qiymətləndirilib onlardan ehtiramla söz açılsa da, hiyləgər qadın tipləri də mövcuddur.

Rəqib tip digərlərindən fərqli olaraq, bir qismi mənfi keyfiyyətlərin daşıyıcısı kimi qarşı cəbhədə yer alsa da, bir qismi isə bu cəhətə malik olmaya da bilər. Belə tipləri, adətən, xalq dəyərindən aşağı salan iki sevən gənc arasında üçüncü şəxs kimi ortaya çıxmasıdır.

Xain tiplər isə özünü əsas qəhrəmanların yaxını, sirdaşı, silahdaşı kimi göstərir, lakin, zamanla xisləti ortaya çıxır. Məsələn, "Aşıq Qərib" dastanında Qərib və Sənəmin ən böyük düşmənlərindən biri Sənəmin cariyələrindən biri olur. Qərib qısa zamanda onun əsl məqsədindən agah olur.

Pyesdə də Haris obrazı Ramizlə üzbəüz dayanır. Onlar arasında qarşıdurma həm müharibə, həm də məhəbbət xəttində müşahidə edilir. Daim əsərlərində obrazların adlarına diqqət edən sənətkar Haris adını da məqsədli seçmişdir. Haris dastanların şər qüvvəsi kimi hiyləyə əl atır. Əvvəlcə Əbdürrəhmanı aldatmağa çalışır, lakin məqsədinə çata bilmir. Bu dəfə Ramizlə üz-üzə gəlir. Bu dəfə də hiylə işlədir. Burada da dastanlarda gördüyümüz qorxaq düşmən tipləri ilə uyğunluq vardır. Harisin Ramiz qarşısında aciz qalması onun zəifliyinin göstəricisidir.

Düşmən tipi işgəncə verməkdən zövq alır. Haris də həm Ramizə, həm də Ulduza mənəvi işgəncə verməklə onları güclü şəkildə sarsıdır.

"Ədirnə fəthi" pyesinin dastanlarla paralel əlamətləri də kifayət qədərdir. Pyesin Rüfət obrazı dastanların əsas qəhrəmanları kimi digər obrazlardan fərqlənir. Digərlərindən daha mərd, cəsur və güclü olan Rüfət hər zaman, hətta yuxusunda da vətəni müdafiə hissi ilə yaşayan obrazdır. Uğrunda mübarizə apardığı ideall bütün dastan qəhrəmanlarında olduğu kimi şəxsi maraqlardan uzaqdır. Zöhrə ilə söhbətindən bəlli olur ki, Rüfət vətən uğrunda ölməyi rahat yaşayışdan üstün tutur.

*"Bu pyes C.Cabbarlının türkçülük ideyalarının yüksək bədii səviyyədə estetik təcəssümü olmaqla bərabər, sənətkarın islam xalqlarının birliyinin onların taleyində həlledici faktorlardan olduğunu sübut edən əsərdir"* [14, s.22-23].

Rüfətin dastan qəhrəmanları ilə bənzər xüsusiyyətlərindən biri də düşmənlə müqavilə bağlayaraq məsələni iki tərəfin xeyrinə həll etmək əvəzinə, torpaqların bir hissəsinin yadellilərdə qalmasını qəbul etməyərək müharibəni seçməsidir. Bir qrup şəxs düşmənlə sülh tərəfdarı olsa da o, türk qızlarının düşmən əlinə keçməsini, türk bayrağının düşmən əli ilə göydən endirilərək palçığa atılmasını özünə bağışlamır. Düşmənlə sülh vəziyyətində yaşamağı "rəzilanə həyat sürmək"lə bir tutur.

Dastanlarda düşmən tərəf hiylə ilə qələbəyə daha çox meyil etsə də, müsbət qəhrəman dürüst mübarizə aparır. Xalid də Rüfəti dəf etmək üçün dəfələrlə hiyləyə əl atır, qarşılığında isə Rüfət mərdliklə vuruşmağı təklif edir.

Dastan qəhrəmanlarının xüsusiyyətlərini ümumiləşmiş şəkildə özündə toplayan Elxan obrazının yer aldığı "Od gəlini" əsəri 1927-ci ildə tamamlanmışdır. Tahirə Məmməd qeyd edir ki, *"Qəhrəmanların qeyri-adi fədakarlığı və dastanvari mübarizəsi XX əsrin başlanğıcında Azərbaycan səhnəsində özünəməxsus yeri olan və H.Ərəblinskinin ifaçılığı ilə daha da cəlbedicilik*

*qazanan Ş.Saminin "Kavə" pyesində öz əksini daha parlaq şəkildə tapmışdır. Zöhhakın zülmlərindən səbri dolmuş xalqa başçılıq edən dəmirçi Kavənin səhnəyə gəlişi xalqın ağır həyat arzularında axtardığı ideal qəhrəmana çox uyğun gəlirdi. Belə bir qəhrəmanı sonralar C.Cabbarlı "Od gəlini"ində Elxan obrazında yaratdı"* [12, s.107].

Ədib əsəri ilə XX əsr Azərbaycanın ictimai, sosial-mədəni problemlərini bir daha işıqlandırdı. Yaratdığı hər bir obraz – Solmaz, Elxan, Sönməz, Aqşin və s. fərdi cizgiləri, xarakter keyfiyyətləri və özünəməxsusluğu ilə ədəbiyyatımızda xüsusi seçilir. Tənqidçi Mustafa Quliyev bu əsəri hərtərəfli tədqiqata cəlb etmiş və bununla bağlı eyniadlı "Od gəlini" məqaləsini çap etdirmişdir. M.Quliyev haqlı olaraq məqaləsində bildirir ki, təəssüf ki, yaşadığı dövr türk teatrında vəziyyət ürəkaçan deyildi. Hər şeydən əvvəl sənətkarların fərdi təxəyyülünün məhsulu olan obrazlar azlıq təşkil edirdi. Bu da dramaturgiyanı zamanla daha da zəiflədir. Bununla belə, *"C.Cabbarlı tərəfindən yazılmış "Od gəlini" türk ədəbiyyatının az-çox maraqlı və qiymətli əsərlərindəndir. Bu əsər ideoloji-nöqteyi nəzərdən də dəxi bizim üçün yararlıdır"* [9, s.33].

"Od gəlini" pyesi ilə dastanlar arasında paralelliklər də kifayət qədərdir. Dastan qəhrəmanları bir ideal uğrunda ardıcıl mübarizə aparır və bu mübarizə şəxsi mənafedən daha çox kütlənin, etnosun lehinə baş tutur. Elxan da cəmiyyəti daxildən parçalayan "qanun" hesab edilənləri qəbul etmir, bunu insanlığın faciəsi sayır, xalqın müstəmləkə vəziyyətində yaşaması ilə razılaşmır və işğalçılara qarşı üsyan qaldırır.

Dastan qəhrəmanları haqsızlığın hökm sürdüyü, zəiflərin əzildiyi mühitə qarşı kəskin mübarizə aparırlar. Bu mübarizə hədəfi bir və daha çox ola bilir. Düşmən güclü olmalıdır ki, qəhrəman da ona qarşı mübarizədə zəif görünməsin.

Elxan istənilən çətinlikdə, mübarizəyə fiziki gücü olmadığı vaxtlarda belə mənəvi dözümlülüyü hesabına iradəli davranmağı bacarır. Dastan qəhrəmanları kimi bəşər cəmiyyətini xoşbəxt görməyi öz səadətindən üstün tutur. Bu yolda ölüm onu qorxutmur. *"Elxan ədalətsiz dünya ilə, mövcud həyat quruluşu ilə heç bir kompromisə getmir, buna qarşı çıxır. O öz ölümü ilə də insanları xilas yolunun reallığına inandırır. Onun ölümü də haqq yoluna çağırışdır, ədalətli dünyanı şüurlu ölümə getməklə də olsa təbliğ etməkdir"* [5, s.198].

Elxan mübarizəsində ilk hədəf olaraq ərəb basqınçılarını, ikinci hədəf gücsüzləri əzdirən dinləri, üçüncü hədəfi köləlik törədən bütün ictimai mühit və yaşayış quruluşu olduğunu ifadə edirdi.

Dastan qəhrəmanları mübarizədə qərarlı olduğundan düşmən cəbhədə doğmaları da olsa, məqsədindən dönmürlər. Doğma qardaşı Aqşin din uğrunda mübarizədə Elxana silah qaldırır. Bu zaman Elxan cavabında *"Qoy.... bəşəriyyət bilsin ki, öz böyük əməlim uğrunda öz doğma qardaşıma qarşı mən də silahsız deyiləm"* [2, s.354].

Dastan qəhrəmanları düşmən qüvvəyə qarşı mübarizədə əsas fiqur olsa da, sadiq döyüş yoldaşları onun ətrafında sıx birləşir və ideallarını müdafiə edir; Elxanın silahdaşları kimi.

Bu kimi xüsusiyyətlərinə görə dastan qəhrəmanları ilə ortaq olmaqla yanaşı, çox zaman Elxanı, haqlı olaraq, Babəklə də əlaqləndirirlər. *"Böyük Babək simasında Cəfər Cabbarlı Azərbaycan xalqının qəhrəmanlıqla dolu olan tarixindən ən parlaq bir səhifəni işıqlandırmışdır. Cəfər Cabbarlının Babəki (Elxan) ədəbiyyatımızda yaradılmış ən qüvvətli dramatik obrazlardandır. Onun böyüklüyü orasındadır ki, hər kəsdən daha tez ictimai bərabərsizliyi dərk edir"* [1, s.14].

Yuxarıda sadaladığımız paralelliklər Babək üçün də ortaqdır. Əsərin sonunda qardaşı Aqşinin gözü önündə ölümə gedən Elxanın monoloqu onun düşüncəsinin dərin qatlarını, idealını əks etdirir. Son nəfəsdə də mübarizəyə çağıran Elxanın ölümü yalnız fiziki ölümdür. Səlahəddin Xəlilov haqlı olaraq qeyd edir ki, *"Od gəlini", elə bil ki, milli-fəlsəfi fikir tariximizin ensiklopediyasıdır"* [7].

Sənətkarın yaradıcılığında "Nəsrəddin şah" əsərinin xüsusi yeri vardır. *"1916-1919-cı illərdə "Nəsrəddin şah" pyesini qələmə almış C.Cabbarlı Qacarlar sülaləsindən olub Ağa Məhəmməd şah Qacarın ölümündən sonra hakimiyyətə gəlmiş digər dövlət xadimlərinin həyatına müraciət edir. ...*

*Cəmaləddin Əfqaninin başçılığı ilə yaranan hərəkatın sosial ədaləti bərqərar etməyə çalışdığı halda terrora üz tutması əsas dramaturji hadisəni təqdim edir"* [4, s.15]. Tarixi hadisəyə əsaslanan bu əsərdə də dastan ənənəsi, dastanvarı situasiyalar aydın müşahidə edilir. Pyesin istər obrazlar sistemi, istərsə də hadisələrin gedişatı dastan ənənəsinin izlərini daşıyır.

"Nəsrəddin şah" pyesində Mirzə Rza, Fərhad, Nadir kimi obrazlar millət fədaisi, vətənpərvər obrazlardır. Ailəsini məhv edən düşmən qüvvələrə nifrət zahirən şəxsi mənafe ilə bağlı görünsə də, əslində xalqla, vətənlə bağlıdır. Bu yolla xalqının tapdanmış ləyaqətini, şərəfini qorumaq üçün mübarizə aparırlar. Əziz Mirəhmədov qeyd edir ki, *"Nəsrəddin şah"da müxtəlif surətlərin dilindən istifadə olunmuş odlu fəryadların, ittiham və məramnamələrin əsl mənası budur ki, Şərqin qədim tarixi məmləkətlərindən olan, dünyada məşhur sənətkarlar yetişdirmiş İran zülm və istibdad əlindən xilas olmalı, orada xalqın azad əməlləri qanadlanıb pərvaz etməli,.... Şərqin qabaqcıl mədəni məmləkətlərindən olmalıdır"* [13, s.2].

Pyesin haqqında bəhs etdiyimiz əsərlərdən əsas fərqlərindən biri burada bir deyil, bir neçə obraz – Fərhad, Nadir, Mirzə Rza dastan qəhrəmanları ilə paralel əlamətlərə malikdir.

Dastan qəhrəmanlarının əsas xüsusiyyətlərindən biri mübariz və döyüşkən olmalarıdır. Dözümlülük, düşmən qarşısında zəifliyini göstərməmək, təkbaşına da olsa, mərdliklə mübarizə aparmaq əsas keyfiyyətlərdəndir. Məhz bu xüsusiyyətlərinə görə ilk növbədə Nadir obrazı maraq doğurur. Nadir dastan qəhrəmanları kimi xalqla iç-içə olan obrazdır. Xalq qayğısına qalmaqları, onlara doğma münasibət xalqda böyük sevgi yaratdığından ən çətin zamanda xalq da onlara dəstək olur. *"Xan, doğrudan da siz bizim üçün çox çalışmışsınız, heç bir harda belə işlər görünməmişdir. Bu vaxta qədər hər bir şadlığa bizi şərik etdiyiniz üçün xudanakərdə, bədbəxtliyinizə də bizləri şərik etmisiniz...Ölməyincə heç zaman getmərik, bu nə sözdür, dur gedək hazırlaşaq"* [2, s.70-71].

Dastan qəhrəmanları hər nə olur olsun mərd və qürurlu olurlar. Nadir də Cavad xanla üz-üzə gəldiyi zaman mübarizə üçün kifayət qədər gücü olmamasına baxmayaraq qorxmadan doğruları dilə gətirir və düşmənə itaət etmir. *"...Mənim bacım Tehran divanxanası deyil ki, Rəhim xan kimi binamusların aləti-istifadəsi olsun. Mənim bacım gözəl, parlaq isə də cansız cəvahirat deyildir ki, medallara düzülüb Rəhim xan kimi alçaqların yaxasından asılsın"* [2, s.73].

Nadir obrazına xas cəhətlər Fərhada da aiddir. Dastan qəhrəmanları kimi Fərhad da ədalətsizliklərlə heç bir şəkildə barışmır, mühitə hakim kəsilmiş "qanun"lara qarşı mübarizə aparır. *"....Ona görə də sizin kimi vicdanımı satmamışam, sahibsiz arvadlara, qızlara təcavüz etməyə qədər namussuzluğa iqdam etmirəm"* [2, s.82].

Dastan qəhrəmanlarının əsas arzularından biri kütlənin firavanlığı, rahat yaşayışıdır. Onların arzusu cəmiyyətin xoşbəxtliyi ilə bağlı olur. Fərhadın da arzularını Mirzə Rza belə ifadə edir: *"İranda dəmiryol çəkdirmək istəyirdin. Yolda mənə demirdimmi ki, İrandan ötrü çalışmaqdan bir dəqiqə yorulmayacaqsan"* [2, s.75].

Digər bir obraz Mirzə Rza da dastan qəhrəmanları ilə ortaq xüsusiyyətlərə malik yaradılmışdır. Övladlarının xoşbəxtliyi yolunda canını verməyə hazır olması əslində onun vətən sevgisi ilə bağlıdır. Millət, vətən qarşısında borcunu anlayır və bunu ödəməyə hazırdır. Digər bir tərəfdən şahla söhbətində ali məqsədini ifadə edir ki, bu da birbaşa onun dastan qəhrəmanları ilə paralel izahımıza imkan yaradır. *"Sən balalarımı havavü-həvəs üçün öldürmək istədiyin halda mən səni vətən və millət, hürriyyət və ədalət naminə qətl etdim! Kimdir adil, kimdir qatil?..."* [2, s.122]

Mirzə Təqi də dastan qəhrəmanları kimi qorxusuz, haqq yolunun yolçusudur. Bəzi dastanlarda gizli düşmənlər əsas qəhrəmana müxtəlif tələlər qurur, onun ölümü üçün hiylələrə əl atırlar. Eyni hal bu pyesdə Mirzə Təqinin də başına gəlir. Lakin, yenə ədalətsizlik qarşısında aciz davranmır, edam ayağında haqq tərəfdarı olmaqla fəxr edir.

Pyesdə Cəmaləddin Əfqaninin prototipi olan eyniadlı obraz onun real həyatdakı amalını eynilə davam etdirir. *"....Kənar edin, hökumət başında oturan müftəxor vəzirləri, çağın millət nümayəndələrini..... onlar öz fəqir qardaşlarının halını yaxşı bilərlər. Onlar çalışıb, məktəblər,*

*mədrəsələr, darülfünunlar....rəsədxanalar açarlar. Bütün islam məmləkəti belə edərsə, islam dirilər”* [2, s.100]. Şamil Qurbanov Əfqani ilə bağlı məqalələr toplusunda qeyd edir ki, *“O, milli birlik müddəasını irəli sürür və bütün müsəlman xalqlarının – istər türk, istər fars, islam, hind olsun – milli tərəqqi üçün birinci növbədə milli kökünə, milli soyuna dönməyi tövsiyə edirdi”* [10, s.19].

Pyesin qadın obrazları da dastanların qadın qəhrəmanları ilə ortaqdır. Pyesdə iki qadın obrazı var: Sitarə və Gülzar. Sevgidə sədaqətlərinə görə, həm xalq, etnos dəyərlərini, həm də onun dastanda əksini özlərində daşıyırlar. Dastanda əsas qadın obrazı hər zaman həm daxili, həm də zahiri əlamətinə görə hamını özünə heyran edir. Düşmən qüvvə Rəhim xan da Sitarənin gözəlliyi qarşısında acizliyini göstərir. Dastanın digər qadın qəhrəmanları kimi Sitarə də misilsiz gözəlliyi ilə bərabər, mərddir. Qaçırılarkən Rəhim xanla söhbəti onun nə qədər dürüst, sədaqətli və cəsarətli qadın olduğunun sübutudur. *“Rəhim xan. Mən zənn edirəm ki, sən məndən razı qalarsan.... Sitarə. Yetim cücələr tülküdən razı olan qədər..... Rəhim xan. Dilini kəs, deyirəm! And olsun Allaha, bu saat vücudunu yer üzündən yox elərəm”* [2, s.79].

Düşmən isə cılız, aciz təqdim edilir. Dastanlarda düşmən hiyləyə əl atır, məzlum kütlənin haqqını yeyir, hətta bir-birini sevən iki əsas obrazı ayıran qüvvə rolunda çıxış edirlər. Bu baxımdan Rəhim xan belə obrazdır. Sahib olduğu mövqedən istifadə edib özündən zəifləri əzməklə güc nümayiş edir. O şah üçün Sitarəni qaçırsa da, yenə də rəqib obrazlardandır. Çünki, o da Sitarənin gözəlliyi qarşısında şahdan alacağı kənd və mal-mülkü unudur və onun tilsiminə düşür. Həm də dastanların bəzi mənfi obrazları kimi nişanlı qıza namizəd çıxır. Bu həm də onu rəqib mövqeyində dəyərləndirməyimizə imkan yaradır.

Dastanların müsbət qəhrəmanları səhvsiz də deyil. O, bəzən yanlışlara yol verir, aldana bilir. Fərhad da Sitarəni sarayda ilk dəfə görəndə şahın hərəmi olduğuna inanır, Sitarəni günahlandırır. Lakin daha böyük səhvlərə yol vermədən reallığı öyrənir.

Tədqiqata cəlb etdiyimiz adıçəkilən dram əsərlərinin hər biri böyük ədib Cəfər Cabbarlının zəngin yaradıcılıq nümunələrindən olmaqla təkcə XX əsrin problemlərini işıqlandırmamış, xalqın genetik yaddaşında əsrlərdən bəri yer alan xalq sevgisi, milli şüur, vətənpərvərlik duyğularını dastan ənənələri paralelində təqdim etməklə Azərbaycan dramaturgiyasının zənginləşməsinə böyük töhfə vermişdir.

## Nəticə / *Conclusion*

XX əsr Azərbaycan dramaturgiyasının böyük sənətkarı Cəfər Cabbarlı xalq ədəbiyyatı ənənələrinə yaxşı bələd olan ədibdir. Şifahi xalq ədəbiyyatının tədqiqini davamlı təbliğ edən, bu sahədə səy göstərib müxtəlif məqalələr yazan Cəfər Cabbarlı yaradıcılığının böyük bir qismində bu ənənələrdən qaynaq kimi istifadə etmişdir.

C.Cabbarlı bir mütəfəkkir kimi başa düşürdü ki, xalqın həyata baxışını, düşüncəsini, adət-ənənələri və dəyərlərini düzgün, dolğun və təfsilatlı öyrənməyə və onu yaşatmağa ehtiyac var. Əsərlərində folklor elementləri həm məqsədli istifadə, həm də yaddaşına hopmuş mədəni-genetik kodlar kimi üzə çıxır.

Sözsüz ki, folklor ədəbiyyatına üstünlük verən sənətkar əsərlərini anlaşılan dillə – xalq dili ilə qələmə almışdır. Bu da xalq ədəbi ənənələrinin dramlar daxilində geniş kütləyə çatdırılmasına təsir göstərmişdir. Bu yolla sənətkar həm də xalqı öz idealları ilə tanış edir. Xüsusilə, tədqiq etdiyimiz “Nəsrəddin şah”, “Trablis müharibəsi”, “Ədirnə fəthi”, “Od gəlini” əsərlərində obrazların hadisələrə münasibəti, dili ilə xalq üçün taleyüklü problemlərə toxunur. Əksər yaradıcılıq nümunələri kimi adıçəkilən əsərlərində xalq ədəbiyyatı ənənələri, xüsusilə dastan, əfsanə süjet və motivlərindən istifadə etməklə yaşadığı XX əsrin həm siyasi, mədəni, sosial-ictimai hadisələrini, həm də bunlar fonunda ənənəyə münasibəti canlandırırdı. Məhz bununla aydın olur ki, dəyişən zamandır. Xalq yaddaşında şüurlu və şüuraltı qatda həkk olunmuş milli-mənəvi dəyərlər əsrlər keçsə də dəyişmir.

Dramaturqun tarixi dramlarında tarix və müasirliklə bərabər, həm də epos, dastan ənənəsi sənətkarlıqla bir müstəviyə gətirilmişdir.

C.Cabbarlının hər bir obrazı dastan qəhrəmanları kimi xalqla iç-içə olan, özünü təcrid etməyən, xalq mənafeyini şəxsi mənafedən üstün tutan şəxsi tiplərdir. Sonu məğlubiyyət olsa belə, apardığı mübarizənin mahiyyətini dərk edən bu tiplər mənəvi qalibiyyətin fərqindədir və bu onların silahdaşları fonunda atılan addımların əsrlər boyu eyni şəkildə, ardıcılları vasitəsilə davam edəcəyinə inam oyadır.

Xalq ədəbiyyatı nümunəsində uğurla təqdim edilmiş torpaq təəssübkeşliyi, vətənpərvərlik, azadlıq uğurunda mübarizə xətti də diqqəti ən çox cəlb edən cəhətlərdəndir.

Ümumilikdə, yaradıcılıq nümunələrində hansı mövzu olur olsun sənətkarın qoyduğu bir neçə standart vardır ki, bu onun əsərləri üçün ənənəvi hal almışdır.

Fərqli dastan və eposlarla apardığımız müqayisə əsasında belə qənaətə gəldik ki, Cəfər Cabbarlının tarixi qəhrəmanlıq dramlarında aparıcı qəhrəman, süjet xətti, ideal uğrunda mübarizənin gerçəkləşmə yolları türk dastançılıq ənənələri ilə paralellik təşkil edir.

C.Cabbarlının dastan poetika ənənələri üzərində ərsəyə gətirdiyi ədəbi-bədii yaradıcılıq nümunələri XX yüzil ədəbiyyatımızın dəyərli xəzinəsidir. Bu əsərlər xalqımızın milli şüurunun, genetik yaddaşının canlı surətdə ifadəsinin ən gözəl nümunələrindəndir.

**Ədəbiyyat / *References***


1. Arif, M. Azərbaycan ədəbiyyatında xalq qəhrəmanları. – Bakı: EAAzF, – 1941, – 53 s.
2. Carbbarlı, C. Seçilmiş əsərləri. IV cilddə: II cild. – Bakı: Şərq-Qərb, – 2005, – 359 s.
3. Cabbarlı, C. Seçilmiş əsərləri. IV cilddə: IV cild. – Bakı: Şərq-Qərb, – 2005, – 288 s.
4. Dadaşov, A. Müasir Azərbaycan dramaturgiyası. – Bakı: Elm və təhsil, – 2012, 303 s.
5. Əliyev, R. Cəfər Cabbarlının yaradıcılıq təkamülü. – Bakı: Yazıçı, – 1988, – 240 s.
6. Əlimirzəyev, X. Klassiklərimizin ideal və poetik sənət dünyası. II cilddə: II cild. – Bakı: Elm və təhsil, – 2009.
7. Xəlilov, S. Sıxılmış zaman və ya Cabbarlı fenomeni. “Ədəbiyyat” qəz., – Bakı: – 2001, 2 fevral
8. Koblandı-batır. Qazax xalq qəhrəmanlıq dastanı. – Bakı: Elm və təhsil, – 2017, – 316 s.
9. Quliyev, M. Od gəlini. Bakı “İnqilab və mədəniyyət məcmuəsi”. (Ərəb qrafikası ilə), 1928, № 2. (50), 33 s.
10. Qurbanov, Ş. C.Əfqani və türk dünyası. Dini vəhdət və dil birliyi. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1997, – 220 s.
11. Məmməd, T. Azərbaycan ədəbiyyatında və ədəbi tənqidində Atatürk. Uluslararası “Türk Dünyasında Milli Mücadele ve Edebiyyat” Sempozyumu Bildirileri. Azerbaycan / Bakü, 12-15 Haziran. Ankara: Türk Dil Kurumu yayınları, – 2022.
12. Məmməd, T. XX əsr Azərbaycan dramaturgiyasının poetikası. – Bakı: Elm, – 1999, – 288 s.
13. Mirəhmədov, Ə. Nəsirəddin şah dramı. “Ədəbiyyat və incəsənət” qəz., – Bakı:– 1947, – 1 yanvar
14. Salamoğlu, T. Sənətkar dünyagörüşünün ziqzaqları. “525-ci qəzet”, – 2019, – 3 aprel.

# Герои исторических драм Джафара Джаббарли в контексте эпичных традиций

**Нурай Бабаева**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: babayavanuray@icloud.com

**Резюме.** Великий художник азербайджанской литературы, талантливый поэт, критик, журналист, драматург, заслуженный деятель искусств, внесший неоценимый вклад в становление и развитие современного литературно-художественного языка, Дж. Джаббарлы в своих произведениях отразил исторические события начала XX века, руководствуясь собственным идейным мышлением, философским видением и художественным стилем. Он по праву считается одним из ведущих мастеров своего времени.

Помимо того что Дж. Джаббарлы ярко запечатлел исторические процессы XX века, как периода своей жизни, так и предшествующих эпох, он внес значительный вклад в развитие азербайджанской драматургии. Соединив исторические события с эпическими традициями, он сохранил и развил традиционализм в поэтике.

Цель данной статьи – представить анализ предмета, мира образов, их характерных черт, особенностей выполняемых функций, вспомогательных типов и любовных линий в ряде драматических произведений Дж. Джаббарлы, основанных на традициях эпической поэтики.

Способность Дж. Джаббарлы воздействовать на читателей с помощью эпической структуры была особенно сильна благодаря тому, что изображенные в эпосах национальные герои и их образы занимают особое место в культурной и генетической памяти народа. Дж. Джаббарлы умело доносил свои идеи и идеалы до народа, используя эпическую структуру в своих исторических драмах.

В статье проводится сопоставление структуры историко-героического эпоса с произведениями "Насируддин шах", "Траблисская Война", "Покорение Эдирны" и "Невеста огня". В результате анализа были выявлены параллели между историческими драмами и героическими персонажами эпоса, типами, выполняющими различные функции, и любовными линиями. С другой стороны, следует учитывать, что эпосы являются продуктом длительного исторического опыта народа и часто имеют общие корни у разных этносов. По этой причине сходства между эпосами различных народов весьма очевидны. Однако со временем эпосы, сформировавшиеся в локальной среде, приобрели уникальные черты, отражающие мышление общества, в котором они создавались. В литературе эпических героев часто называют «народными героями», поскольку они представляют собой идеализированный тип, сложившийся в соответствии с представлениями этноса. Этот тип сохраняет свою актуальность и остаётся неизменным в мышлении на протяжении столетий.

В статье проводится всесторонний анализ обобщённых черт героев на основе произведений "Насируддин шах", "Траблисская Война", "Покорение Эдирны" и "Невеста огня".

**Ключевые слова:** Джафар Джаббарлы, эпос, герой, "Траблисская война", "Покорение Эдирны", "Невеста огня"